Azərbaycan Respublikası
Əqli Mülkiyyət Agentliyi

# AZƏRBAYCANA MƏXSUS COĞRAFİ GÖSTƏRİCİLƏR

Bakı – 2022

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi.
2022**

**Prof. KAMRAN İMANOV,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri




**Hörmətli dostlar!**
**Hörmətli həmkarlar, tədbir iştirakçıları və ziyarətçilər!**

Azərbaycanın coğrafi göstəriciləri və brendlərini diqqətinizə çatdırmaqdan çox məmnunam. Sərginin bütün təşkilatçılarına, ilk növbədə, Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) və Türkiyə Patent və Əmtəə Nişanları İdarəsinə (TÜRKPATENT) onları nümayiş etdirmək imkanına görə təşəkkür etmək istəyirəm.

Xalqların mədəni müxtəlifliyinin tanınması və qorunub saxlanılması, onların mədəni ifadə formalarının "mədəni kapital" mənbəyi kimi təbliği hər zaman yaradıcılığın stimullaşdırılmasına və əqli mülkiyyət xəzinəsinin innovasiyalarla zənginləşməsinə xidmət etmişdir. Mənşə adları vasitəsilə həyata keçirilən bu nəcib missiya ziyarətçilərə Azərbaycan xalqının qədim tarixi keçmişi, onun zəngin mədəniyyəti ilə tanış olmağa imkan verir. Təqdim olunan bir çox coğrafi göstəricilərlə müəyyən edilən məhsullar ənənəvi üsul və biliklər əsasında yaradılır və istehsal olunur və nəsildən-nəslə mənşə yerlərinin varislərinə keçir. Bununla da, bir sıra belə məhsullar müvafiq regionun adət-ənənələrinə əsaslanan yaradıcı irsin səciyyəvi xüsusiyyətlərini daşıyır və ənənəvi mədəni ifadələr (ƏMİ) və ənənəvi biliklər (ƏB) adlandırılan qeyri-maddi mədəni irs

kateqoriyasına aid edilir. ƏMİ və ƏB Azərbaycanda *sui generis* rejimində qorunur, lakin coğrafi göstəricilər məhsulun standartları hesabına onun dolayı qorunma aləti kimi çıxış edir.

Bu sərgidə təqdim olunan coğrafi göstəricilərin (brendlərin) nümunələri diqqətə layiq bir xüsusiyyətə malikdir: tarixi-mədəni keçmişimizdən qaynaqlanır, Azərbaycan adət-ənənələrini, müasir mərhələdə Azərbaycan xalqının əqli mülkiyyətinin varisliyini və davamlılığını təqdim edir. Və təsadüfi deyil ki, bu ənənə elə bir keçmişdir ki, onsuz bu günün gələcəyi yoxdur, ənənə isə keçmişin tərəqqisidir, necə ki, bugünkü tərəqqi sabahın ənənəsinə çevriləcək.

Azərbaycan milli mətbəxinin inciləri – dolma və Şəki paxlavası, bizim mineral sular və çaxırlar, milli əl işi sənət nümunələri – xalça və kəlağayı, milli musiqi alətləri – tar, kamança və dəf, həmçinin misgərlik sənəti etnosumuzun mənəvi dünyası və mentaliteti, intellekti və dünyagörüşü ilə sıx bağlıdır, onlar mədəniyyətimizin ruhunun daşıyıcılarıdır. Azərbaycan xalqının ruhunun mədəniyyəti bu mədəniyyət ruhunun elçilərində öz əksini tapır.

Xüsusi qürur hissi ilə vurğulamaq istərdim ki, bu nümunələr UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Əminəm ki, sərgilənən Azərbaycan mədəniyyətinin seçmə elementləri zəngin və qədim mədəniyyətimiz haqqında geniş məlumat verəcəkdir.

Hamıya uğurlar diləyirəm.

Diqqətiniz üçün minnətdaram.

# Coğrafi göstəricilər barədə

# MƏLUMAT

## SİRAB




**Qeydiyyat nömrəsi:** 011/01
**Qeydiyyat tarixi:** 25.12.2013
**Sahibinin adı və ünvanı:** Naxçıvan MR Antiinhisar və Istehlak Bazarına Nəzarət Dövlət Xidməti

**Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:**

“Sirab” mineral su yatağı Naxçıvan Muxtar Respublikasının şimal-şərqində, Babək rayononun Sirab kəndi ərazisində, dəniz səviyyəsindən 1100 metr hündürlükdə, Naxçıvan şəhərindən 14.6 km şimal-şərqdə, dağ ətəyində yerləşir.

“Sirab” suyunun xaraktersitikası: Minerallıdır (ümumi minerallıq - 2.0-3.0 q/dm$^3$), rəngsiz, dadsız, iysiz, yumşaq, şəffaf və çöküntüsü mümkündür. Toksiki komponentləri yoxdur. Qədim zamanlardan indiyədək “Sirab” mineral suyundan həm içmək həm də müalicə məqsədləri üçün istifadə edilmişdir. Sirab sözü “Sirli Su” mənasini daşıyır.

# BADAMLI

**Qeydiyyat nömrəsi:** 010/01
**Qeydiyyat tarixi:** 25.12.2013
**Sahibinin adı və ünvanı:** Naxçıvan MR Antiinhisar və Istehlak Bazarına Nəzarət Dövlət Xidməti

**Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:**

Badamlı" mineral suyunun mənbəyi dəniz səviyyəsindən 1400 m yüksəklikdə yerləşən, Naxçıvan şəhərindən 30 km məsafədə olan, Şahbuz rayonunun, Badamlı qəsəbəsinin cənub qərbindədir.

"Badamlı" suyunun xarakteristikası: az minerallaşmışdır. Kimyəvi tərkibində əsasən kalsium, maqnezium və natrium daha çoxdur. Fiziki göstəricilər – rəngsiz, dadsız, iysiz, yumşaq, şəffaf və çöküntüsüzdür. Azot birləşmələri mineral səviyyədədir. Toksiki komponentlər yoxdur.

# AZƏRBAYCAN XALÇALARI

## Bəhmənli xalçası



## Çələbi xalçası



## Qarabağ xalçası



## Bəhmənli (Talış) xalçası



## Butalı Qarabağ xalçası



## Qarabağ Modern xalçası



# ZƏNGƏZUR XALÇASI



**Qeydiyyat nömrəsi:** 016/01
**Qeydiyyat tarixi:** 31.03.2015
**Sahibinin adı və ünvanı:** Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küç. 2

**Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:**

Azərbaycanın tarixi ərazisi olan Zəngəzur Qərbi Azərbaycanın (indiki Ermənistan) cənub-şərqini, Goyçə gölünün cənubunu, Azərbaycan Respublikasının cənub-qərbini əhatə edir. Zəngəzur bölgəsi şərqdən Qarabağ, qərbdən Naxçıvan, cənubdan Arazla əhatələnmişdir.

Bu bədii kompozisiya, elementlərin bu qaydada düzülüşü və nisbəti, hətta kəmiyyəti, ara sahənin uzunsov forması, burada yerləşən stilizə olunmuş elementlərin say nisbəti, rəng seçimi, məhz "Zəngəzur" xalçası üçün səciyyəvidir. “Zəngəzur” xalçası təbii boyalardan, həmin ərazidə əldə edilən ipliklərlərdən istifadə edilməklə, əllə toxunan zəngin rəng palitrasına malik olan xalçadır. “Zəngəzur” xalçası – təbii yundan və təbii boyalardan istifadə edilərək toxunmuşdur.  Ara sahənin aşağı və yuxarı hissə-

sində tam sxematik formaya malik mehrabın olması xalçanın namaz üçün toxunduğuna dəlalət edir.

# İRƏVAN XALÇASI



**Qeydiyyat nömrəsi:** 014/01
**Qeydiyyat tarixi:** 31.03.2015
**Sahibinin adı və ünvanı:** Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küç. 2

**Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:**

Azərbaycanın qədim tarixi torpağı olan İrəvan şəhəri Ağrı-Vadisinin Şimal kənarında, Zəngi çayının sahilində, Kanakir, Çorbax, Qalalı və s. kimi yaşayış məntəqələrinin yaxınlığında yerləşir.

Bu bədii kompozisiya, elementlərin bu qaydada düzülüşü və nisbəti, hətta kəmiyyəti, xüsusilə bütöv və yarımçıq medalyonların say nisbəti, rəng seçimi, məhz “İrəvan” xalçası üçün səciyyəvidir. Təbii boyalardan, təbii ipliklərdən istifadə edilməklə, əllə toxunan zəngin rəng palitrasına malik olan xalçadır.

# BASQAL KƏLAĞAYISI



**Qeydiyyat nömrəsi:** 023/01
**Qeydiyyat tarixi:** 14.03.2017
**Sahibinin adı və ünvanı:** CAHANGİR-T FİRMASI, AZ 1009, Bakı şəhəri, Yasamal rayonu, C.Cabbarlı küç., ev 20/67, mənzil 28

**Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:**

Basqal İsmayıllı rayonunda dəniz səviyyəsindən 998 metr hündürlükdə yerləşən qəsəbədir.

Kəlağayının toxunması üçün istifadə edilən xammal təbii ipəkqurdundan əldə edilmiş ipək liflərdən toxunmuş kəlağayı ipəyi adlanan ipək növüdür.

**Basqal** kəlağayısının boyadılması üçün ənənəvi olaraq sarağan ağacından istifadə olunur. Rəng almaq üçün ənənəyə uyğun olaraq Basqal və Basqalın ətrafından yığılmış bitkilərdən istifadə olunur. Qədimdən bəri "kəlağayı ipəyi" adlanan təbii ipək növündən istifadə olunmaqla sıxlığı cox aşağı, 28-30 nms olan, 2-3 ipək lifindən ibarət eşil-

miş, boyanmamış ipək iplik sapdan istifadə olunaraq toxunmuş, üzəri təbii boyalardan istifadə edilməklə “basma-naxış üsulu ilə naxışlanmış, ölçüsü 140-160 sm olan məmulatdır.

# ŞƏKİ HALVASI



**<u>Qeydiyyat nömrəsi</u>:** 037/01
**<u>Qeydiyyat tarixi</u>:** 28.08.2019
**<u>Sahibinin adı və ünvanı:</u>** Qaffarov Məmmədsaleh Əliəhməd oğlu, AZ5500, Şəki rayonu, M.Axundov küç., ev 112
**<u>İstifadə hüququ:</u>** Səmədov Ramil Nadir oğlu, AZ 5500, Şəki rayonu, M.Axundov küç., ev 112

**<u>Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:</u>**

Şəki şəhəri respublikanın şimal-qərbində, Kiş çayının sol sahilində, dəniz səviyyəsindən 700 metr yüksəklikdə, paytaxt Bakı şəhərindən 370 km aralıda, Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində, mərkəzi regionlardan uzaqda – təcrid olunmuş bir məkanda yerləşir. Şərqdən Qərbə axan Qurcanaçay çayı şəhəri iki hissəyə, daha yüksəkdə yerləşən Cənub, digəri isə vadidə yerləşən Şimal hissələrinə bölür.

Şəki halvasının səciyyəvi xüsusiyyəti onun xüsusi avadanlıqların köməyi ilə yüksək keyfiyyətli xammallardan istifadə edərək ənənəvi dad xüsusiyyətlərinin qorunub saxlanmasına riayət etməklə yerli ustalar tərəfindən xüsusi

texnologiya ilə hazırlanmasıdır. Halvanın əsas xüsusiyyəti düyü unundan hazırlanmış iriştələrin arasına xüsusi ədviyyatlar qatılmış qoz-fındıqdan hazırlanmış içliyin vurulması və şərbətlə isladılaraq, dəmlənmiş zəfərandan hazırlanmış şirə ilə naxışlanmasıdır. Şəki halvasının hazırlanması sahəsində hər ailənin özünəməxsus sirləri vardir ki, bu da halvanın dad xüsusiyyətinə təsir edərək, bir istehsalçını digərlərindən fərqləndirilib xüsusi şöhrət qazanmasına səbəb olmuşdur.

# İSMAYILLI PİP DOLMASI



**Qeydiyyat nömrəsi:** 032/01
**Qeydiyyat tarixi:** 15.03.2018
**Sahibinin adı və ünvanı:** Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ 1132, Bakı şəh., Sabunçu r-nu, Bakıxanov ŞTQ, Sülh küçəsi, ev IV, mən. 91

**Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:**

İsmayıllı rayonu əsasən Baş Qafqaz silsiləsinin cənub yamacında, yüksək və orta dağlıq qurşaqda, Acınohur alçaq dağlığında və Alazan Həftəran vadisində yerləşir.

Pip dolmasının səciyyəvi xüsusiyyətləri istifadə olunan ərzaqlar, xüsusən içliyin büküldüyü pip yarpağının digər ərzaqlarla birlikdə yaratdığı dad ahəngi, xörəyin yerli əhali tərəfindən keçmiş zamanlardan bişirilməsi, hazırlanma texnikası və süfrəyə verilməsi kimi xarakterizə edilir. İsmayıllı pip dolmasının hazırlanmasında ət, pip yarpağı, soğan, sarımsaq, düyü, keşniş, şüyüd, quru nanə, duz, istiotdan istifadə olunur.

Dolmanın hazırlanmasında konservləşdirilmiş və ya təzə halda fısdıq ağacının (pip) yarpaqlarından istifadə

olunur. Bu ağac həmin ərazi olan meşələrdə bitən meyvəsiz ağacdır. Pip yarpağı əsasən nazik, yumşaq olur. Dolmanın hazırlanmasında zədəsiz, orta ölçülü yarpaqlar seçilir. Dolma daş qazanda və ya qalaylanmış mis qazanda hazırlanmalıdır.

# MEYSƏRİ




**<u>Qeydiyyat nömrəsi</u>:** 041/01
**<u>Qeydiyyat tarixi</u>:** 20.05.2020
**<u>Sahibinin adı və ünvanı:</u>** "ŞİRVAN ŞƏRABLARI" Məhdud Məsuliyyətli Cəmiyyəti, AZ 1014, Bakı şəh., Nəsimi r-nu, Süleyman Rüstəm küç., ev 9, AZ 1014

**<u>Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:</u>**

Meysəri kəndi Şamaxı rayonunun Şimal-Şərq hissəsində, Böyük Qafqaz sıra dağlarının Meysəri silsiləsinin ətəyində yerləşir.

Meysəri şərabı dəniz səviyyəsindən 750 mert hündürlükdə, buzlaşma dövründən qalan və məhz üzümə xüsusi dad verən zəngin minerallara malik qumsal leoss torpaqda becərilən üzüm sortlarından əldə edilir. Torpaqda olan minerralların, iqlim şəraitinin və insan faktorunun qarşılıqlı təsiri altında Meysəri adlı şərabda xüsusi şöhrət, dad xüsusiyyətləri və əsasən coğrafi mənşə ilə bağlı olan keyfiyyət xassələri formalaşmışdır.

# AĞDAM




**<u>Qeydiyyat nömrəsi</u>:** 042/01
**<u>Qeydiyyat tarixi</u>:** 26.05.2022
**<u>Sahibinin adı və ünvanı:</u>**
Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO, Bakı şəh., Səbail r-nu, Neftçilər prospekti 32

**<u>Coğrafi göstəricinin səciyyəvi xüsusiyyətləri və hüdudları:</u>**

Ağdam rayonu Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır. Ağdam rayonu Ağcabədi, Tərtər, Bərdə, Kəlbəcər, Əsgəran və Xocavənd həmçinin, Füzuli

rayonları ilə həmsərhəddir. Dəniz səviyyəsindən yüksəkliyi 410 metr, maksimum yüksəklik 1365 metrdir. İqlimi əsasən mülayim isti, quraq subtropikdir.

Ağdam və onun ətraf bölgələrində havanın, torpaq örtüyünün, nəmliyin, suyun, küləyin, illik temperatur qiymətinin, torpaq iqlim şəraitinin mükəmməlliyi Rkasiteli, Bayanşirə üzüm sortlarının yetişib, bar verməsi üçün çox əlverişli sayılır.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.